Agatha Christie

# THE MURDER OF ROGER ACKROYD

# MÜNDƏRİCAT


I FƏSİL. Doktor Şeppard səhər yeməyində...6
II FƏSİL. Kinqs-Əbbotda kim kimdir...11
III FƏSİL. Tərəvəz yetişdirən adam...19
IV FƏSİL. Fenlidə nahar...31
V FƏSİL. Qətl...46
VI FƏSİL. Tunis xəncəri...58
VII FƏSİL. Mən qonşumuzun peşəsini öyrənirəm...66
VIII FƏSİL. İnspektor Reqlan əmindir...80
IX FƏSİL. Şəffaf karplar üzən gölcük...91
X FƏSİL. Baş qulluqçu...101
XI FƏSİL. Puaro görüşə gedir...116
XII FƏSİL. Masa ətrafında...124
XIII FƏSİL. Qaz lələyi...134
XIV FƏSİL. Missis Ekroyd...142
XV FƏSİL. Cefri Reymond...153
XVI FƏSİL. Axşam maconq oynayarkən...163
XVII FƏSİL. Parker...172
XVIII FƏSİL. Çarlz Kent...185
XIX FƏSİL. Flora Ekroyd...191
XX FƏSİL. Miss Rassel...201
XXI FƏSİL. Qəzetdəki xəbər...211
XXII FƏSİL. Ursulanın hekayəsi...218
XXIII FƏSİL. Puaronun evində kiçik bir tamaşa...226
XXIV FƏSİL. Ralf Peytonun danışdıqları...238
XXV FƏSİL. Həqiqət...242
XXVI FƏSİL. Həqiqətdən başqa heç nə...249
EPİLOQ...253

## I FƏSİL

# Doktor Şeppard səhər yeməyində

Missis Ferrare sentyabrın 16-dan 17-nə keçən gecə ölmüşdü. Mənim ardımca çox gec, yalnız ayın 17-si səhəri, cümə günü adam göndərmişdilər. Artıq onun ölümündən bir neçə saat keçmişdi.

Mən bir saatdan, ya da saat yarımdan sonra evə qayıtdım. Giriş qapısını öz açarımla açıb, şlyapamı və yüngül paltomu qoyduğum holda bir neçə dəqiqə qəsdən ləngidim: artıq səhərlər xeyli soyuq olurdu. Açığını deyim ki, çox narahat və dilxor olmuşdum. İnstinktim mənə bizi xoşagəlməz hadisələr gözlədiyini desə də, əlbəttə, konkret nələr ola biləcəyini təxmin edə bilmirdim.

Yemək otağından fincanların cingiltisi, bacım Kerolaynın qısa və quru öskürəyinin səsi gəldi.

– Sənsən, Ceyms? – o səsləndi.

Mənasız sual idi: başqa kim ola bilərdi ki? Açığını desəm, məhz ona görə ləngiyirdim. Kiplinqdə bir manqust ailəsinin devizi beləydi: "Get və tap". Devizin birinci hissəsinin bacıma heç bir dəxli yox idi. Kerolayn daim evdə otursa da, hər şeydən xəbəri vardı. Onun kəşfiyyat korpusunun xidmətçilər və dükançılardan ibarət olmasından şübhələnmişdim. O, evdən informasiya toplamaq deyil, onu yaymaq üçün çıxırdı. Bu sahədə böyük mütəxəssisdir.

Məndə inamsızlıq yaradan da onun xarakterindəki bu cizgiydi. Mən missis Ferrarenin ölümüylə bağlı Kerolayna nə desəm, saat yarımdan sonra bütün kənd bundan xəbər tutacaqdı. Ona görə də məlumatlarımı bacımdan mümkün qədər gizli saxlamağa çalışırdım. Doğrudur, o özü hər şeyi öyrənirdi, ancaq məndən eşitmədiyi üçün özümü daxilən rahat hiss edirdim.

Missis Ferrarenin əri təxminən bir il öncə vəfat etmişdi və Kerolayn heç bir əsası olmadan onu elə hey arvadının zəhərlədiyini deyirdi. O mənim etirazlarıma və cənab Ferrarenin çox içdiyi üçün kəskin qastritdən öldüyünə şübhəylə yanaşırdı. Qastrit simptomlarının arsenlə zəhərlənmədən o qədər də fərqlənmədiyi ilə razıydım, ancaq Kerolayn öz ittihamlarını tamam başqa əsasla irəli sürürdü.

– Sən bir ona bax, – o deyirdi.

Missis Ferrare çox gənc olmasa da, cəlbedici qadındır, geyimi daim sadə olsa da, ona yaraşır. Ancaq boş şeydir! Cəlbedici qadın istənilən qədərdir və paltarlarını da Parisdən alırlar, ancaq onların heç biri buna görə ərini zəhərləmir!

– Gəlirəm, əzizim, – tələsik cavab verdim. – Paltomu asıram.

– Bu qədər vaxta yarım düjün palto asmaq olardı.

O, haqlıydı. Mən yemək otağına girib adətim üzrə Kerolaynın yanağından maç elədim və stolun arxasına keçib yumurtayla bekona girişdim. Ət yetərincə soyuq idi.

– Səni səhər tezdən çağırmışdılar? – Kerolayn soruşdu.

– Hə, – dedim, – Kinqs-Peddoka. Missis Ferrare…

– Bilirəm, – bacım cavab verdi.

– Haradan?

– Mənə Anni dedi.

Anni bizim qulluqçudur. Yaxşı qızdır, ancaq çox çərənçidir.

Araya sükut çökdü. Mən yeməyə davam etdim. Bacım nəyləsə çox maraqlananda və çox həyəcanlananda uzun və sivri burnunun ucu titrəyir.

– Yaxşı, bəs necə oldu? – o, tələsmədən soruşdu.

– Pis oldu. Heç nə edə bilmədik. Deyəsən, yuxuda ölmüşdü.

– Bilirəm, – bacım yenə dedi. Bu məni əsəbiləşdirdi.

– Sən bunu bilə bilməzsən. Mən özüm belə ora gedənədək heç nə bilmirdim. Bu barədə də hələ heç kəsə bir söz deməmişəm. Anni hər şeyi bilirsə, onda falabaxandır.

– Bunu Anni yox, südçü deyib. O da Ferrarelərin aşpazından eşidib.

Sizə deyirdim axı, Kerolayn informasiya toplamaq üçün heç yerə çıxmır. İnformasiyalar ona evdə oturduğu yerdə gəlir.

Bacım davam etdi:

– O nədən ölüb? Ürəyindən?

– Bəs südçü bunu sənə demədi? – kinayə ilə soruşdum.

Ancaq kinayələr Kerolayna təsir etmir. Onları vecinə almadan suallara müvafiq cavab verirdi.

– O bilmir, – sadəlövhcəsinə dedi.

Kerolayn gec-tez onsuz da hər şeyi biləcəkdi. Ona görə də qoy elə məndən eşitsin.

– O, yüksək dozada veronal *yuxu dərmanı* qəbul etdiyi üçün ölüb. Veronalı son vaxtlar yuxusuzluqdan əziyyət çəkdiyi üçün qəbul edirmiş və yəqin ki, dozanı səhv salıb.

– Boş şeydir, – Kerolayn dərhal cavab verdi. – O, bunu qəsdən edib. Etiraz etmə!

Qəribədir, gizli şəkildə əmin olduğunuz, amma dilə gətirə bilmədiyiniz bir şeyi başqa biri ucadan ifadə edirsə, daxili ziddiyyətiniz sizi hər şeyi inkara məcbur edir. Mən dərhal əsəbiləşdim:

– Sən yenə də öz şübhələrindən əl çəkmirsən! Missis Ferrarenin bu nəyinə lazım idi? Hələ kifayət qədər gənc, sağlam və təminatlı dul qadın idi. Onun həyatdan zövq almaqdan başqa nə dərdi ola bilərdi? Absurddur!

– Qətiyyən. Onun son zamanlar dəyişdiyini sən də görə bilərdin. Bunu gözləmək olardı. Ona sanki daim hansısa kabuslar əziyyət verirdi. Yuxuya gedə bilmədiyini sən özün də indicə etiraf etdin.

– Yaxşı, sənin diaqnozun nədir? – soyuq tərzdə soruşdum. – Uğursuz məhəbbət?

Bacım başını buladı.

– Vicdan əzabı, – o, böyük məmnuniyyətlə dedi.

– Vicdan əzabı?

– Hə. Sən həmişə onun ərini zəhərləməsinə etiraz edirdin. Mən də bir qədər şübhə edirdim. Ancaq indi tam əmin oldum.

– Mənə elə gəlir ki, sənin mühakimələrində məntiq çatışmır, – etiraz etdim. – Qadın belə bir cinayət törədibsə, deməli, çox soyuqqanlı olmalıdır. Belələri peşmançılıq keçirmirlər.

Kerolayn başını buladı.

– Ola bilər, ola bilər. Ancaq missis Ferrare belə qadınlardan deyildi. O, çox əsəbiydi və bu da onu qətlə sövq edib. O, şübhəsiz, Eşli Ferrare kimi bir ərlə özünə əzab verə bilməzdi.

Kerolaynın səsindən mərhuma nəsə yazığı gəldiyi hiss olunurdu. Ancaq missis Ferrarenin sağlığında Kerolaynın ona qarşı bu qədər mərhəmətli olduğunu düşünmürəm. Ancaq o, Paris geyimlərindən istifadə olunmayan (belə güman olunur) yerə təşrif aparandan sonra bacım ona qarşı incə duyğular bəsləməyə hazır idi. Buna baxmayaraq mən yenə onun cəfəngiyat danışdığını söylədim. Amma öz-özlüyümdə onunla, ən azı açıq söylədikləri ilə qismən razı olsam da, nəticə çıxarmaqda ona kömək etmək niyyətim yox idi. Axı o, kənddə dolaşıb hər qarşısına çıxanla bu kədərli hadisəni müzakirə edəcək və şübhələrinin məndən aldığı tibbi dəlillərə əsaslandığını deyəcəkdi. Nə isə.

– Cəfəngiyatdır, – Kerolayn mənim etirazlarıma cavab verərək təkrar etdi. – Özün görəcəksən. Mərc gəlirəm ki, o, məktub yazaraq hər şeyi etiraf edib.

– O heç bir məktub yazmayıb, – bacımın bu sözlərimdən hər hansı nəticə çıxaracağını düşünmədən qəfil dedim.

– Oho! – Kerolayn dərhal səsləndi. – Demək, sən bunu öyrənməyə cəhd etmisən, elədir? Mənə elə gəlir ki, Ceyms, sən ürəyində mənim dediyim bir çox şeylə razısan. Ay səni, kələkbaz!

– Nə kələkbaz. Sadəcə bəzən intihar ehtimalını da nəzərə almaq lazımdır, – həvəssiz razılaşdım.

– Deməli, istintaq olacaq?

– Bəlkə də. Ancaq mən yuxu dərmanının tam təsadüfi qəbul edildiyini desəm, heç bir istintaq olmayacaq.

– Sən bunun təsadüf olduğuna tam əminsən? – o, ciddi soruşdu.

Mən cavab verməyib stoldan qalxdım.